**225** **Azərbaycan Respublikası ərazisində istifadəsinə icazə verilən nəzarət-kassa aparatlarının Dövlət Reyestrinə əlavə və dəyişikliklər edilməsi haqqında**

## AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Əhali ilə pul hesablaşmalarının aparılmasında nəzarət-kassa aparatlarının tətbiqinin genişləndirilməsini təmin etmək məqsədi ilə, nəzarət-kassa aparatları üzrə sahələrarası ekspert komissiyasının təkliflərini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1.Bu qərarın əlavəsində göstərilən nəzarət-kassa aparatları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 28 dekabr tarixli, 266 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində istifadəsinə icazə verilən nəzarət-kassa aparatlarının Dövlət Reyestri"nə daxil edilsin.

2.Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1995-ci il 28 dekabr tarixli, 266 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində istifadəsinə icazə verilən nəzarət-kassa aparatlarının Dövlət Reyestri"ndən 4-cü sütun ("İstifadə müddəti") çıxarılsın.

**Azərbaycan Respublikasının Baş naziri A.RASİZADƏ**

Bakı şəhəri, 6 mart 2000-ci il
№ 36

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
2000-ci il 6 mart tarixli, 36 nömrəli qərarına
ƏLAVƏ

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.-2000.- 31 mart, № 3.- S. 1191-1192.